Azadlıq Radiosu

AZƏRBAYCAN XƏBƏRLƏRİ

# Təkrar sertifikatlaşdırmanın müsahibə mərhələsi başlanır

indicə




Müəllimlərin sertifikatlaşdırma imtahanı

Sentyabrın 3-də Azərbaycanda müəllimlərin təkrar sertifikatlaşdırılması prosesinin müsahibə mərhələsinə başlanılır.

Bu barədə AZƏRTAC-a Məktəbəqədər və Ümumi Təhsil üzrə dövlət Agentliyindən məlumat verilib. Bildirilib ki, test imtahanında keçid balı toplayan, müsahibə mərhələsində uğur qazanan müəllimlərin əməkhaqqına 10 faiz, test imtahanında 51 və daha yüksək bal toplayan müəllimlərin əməkhaqqına isə 35 faiz əlavə tətbiq olunacaq.

Bu il iyunun 30-da elm və təhsil naziri **Emin Əmrullayev** "Sertifikatlaşdırma: səriştəli müəllim – keyfiyyətli təhsil" mövzusunda keçirilən hesabat tədbirində demişdi ki,

sertifikasiya imtahanlarının hər iki cəhdində uğursuz nəticə göstərən ümumilikdə 9 min 334 müəllimin əmək müqaviləsi ləğv edilib.

Nazirin sözlərinə görə, ümumilikdə 91 min 407 müəllim sertifikatlaşdırma prosesini uğurla başa vurub. İmtahan nəticələrinə əsasən, 60 min 818 müəllimin əməkhaqqına 10 faiz, daha yüksək göstərici əldə edən 30 min 590 müəllimin maaşına isə 35 faiz əlavə edilib.

## Xatırlatma

Azərbaycanda müəllimlər üçün sertifikatlaşdırma prosesi 2022-ci ildə başlayıb və test, müsahibə olmaqla iki mərhələdən ibarətdir. Bu prosesi uğurla başa vuran müəllimlərin maaşlarına 10 faizdən 35 faizədək əlavə edilir.

Layihənin icrası dövründə narazılıqlar da qeydə alınıb. 2024-cü ildə sertifikatlaşdırmadan keçə bilməyən müəllimlər Bakıda aksiya keçirərək nazirlik qarşısına yığışmışdılar. Onlar imtahanlarda şəffaflığın olmadığını, texniki problemlərlə qarşılaşdıqlarını bildirir və təkrar işə qəbul olunmağı tələb edirdilər.

Bəzi deputatların fikrincə, müəllimin sertifikat imtahanından keçə bilməməsi o deməkdir ki, universitetlərdə təhsilin keyfiyyətinə diqqət artırılmalıdır.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur